*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

**Qəbələ rayonunun ictimai-siyasi qəzeti**

*1933-cü ildən nəşr olunur*

№ 3-4 (7052-7053) ❁ Bazar ertəsi, 14 yanvar 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik



**«2012-ci il... Ölkəmiz üçün çox uğurlu il olmuşdur. 2012-ci ildə Azərbaycanın uğurlu, dinamik inkişafı təmin edilmişdir. Ölkə qarşısında duran bütün vəzifələr müvəffəqiyyətlə icra olunmuşdur... Əldə edilmiş nailiyyətlər bizə imkan verir ki, 2013-cü ildə də böyük nikbinliklə baxaq. Əminəm ki, yeni ildə ölkə qarşısında duran bütün vəzifələr uğurla icra ediləcəkdir».**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə Azərbaycan xalqına təbrikindən.*

## Sağlamlıq imkanları məhdud uşaqlara və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara sosial xidmət göstərilməsi sahəsində əlavə tədbirlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Son illərdə ölkəmizin sosial-iqtisadi inkişafı sağlamlıq imkanları məhdud uşaqların və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların sosial müdafiəsinin, o cümlədən onlara göstərilən sosial xidmətin keyfiyyətinin artmasına imkan yaratmışdır. Əhalinin bu qrupuna göstərilən sosial xidmətin yaxşılaşdırılması istiqamətində əldə olunan müsbət meyillərin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sağlamlıq imkanları məhdud uşaqlara və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlara göstərilən sosial reabilitasiya xidmətinin təkmilləşdirilməsi məqsədi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ilkin olaraq 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Bakı şəhəri, 9 yanvar 2013-cü il.*

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Myanma İttifaqı Respublikasının Prezidenti zati-aliləri cənab Theyn Seynə və Myanma xalqına ölkənin milli bayramı—Müstəqillik günü münasibətilə səmimi təbrik məktubu göndərmiş, dost ölkəyə əmin-amanlıq və tərəqqi arzulamışdır.

❁ ❁ ❁

Ölkə başçısı Azərbaycan pravoslav xristian icmasını İsa Peyğəmbərin mübarək mövludu—Milad bayramı münasibətilə ürəkdən təbrik etmiş, xiristian ailələrinə xoşbəxtlik, süfrələrinə bol ruzi-bərəkət arzulamışdır.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mingəçevir, Şirvan şəhərlərinin və Yardımlı, Daşkəsən rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalamışdır. Sərəncamla Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan hər bir şəhər və rayon üçün ayrı-ayrılıqda 2 (iki) milyon manat vəsait ayrılmışdır.

## «Heydər Əliyev. Müstəqilliyimiz əbədidir» çoxcildliyinin 42-ci cildi çapdan çıxmışdır

"Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla,ələlxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma, mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir. Lakin Ermənistanla belə əməkdaşlıq yalnız və yalnız Dağlıq Qarabağ münaqişəsi həll olunduqdan, Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən, qaçqınlar öz daimi yaşayış yerlərinə qayıtdıqdan sonra mümkün ola bilər.

Hesab edirik ki, terrora qarşı mübarizə bütün dövlətlərin və beynəlxalq təşkilatların əlbir fəaliyyətini tələb edir. Bununla bağlı düşünürəm ki, İqtisadi Əməkdaşlıq Təşkilatı da üzərinə düşən tarixi vəzifəni yerinə yetirməli və bundan sonra da ümumbəşəri dəyərlər uğrunda mübarizəni davam etdirməli, bu təşkilatın üzvü olan Azərbaycanın haqq işinə dəstək verməlidir".

AzərTAc xəbər verir ki, bu sətirlər "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin "Azərnəşr" tərəfindən yenicə çapdan buraxılmış 42-ci cildindən - ümummilli lider Heydər Əliyevin 2002-ci ilin oktyabrın 14-də İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət baş-




çılarının İstanbulda keçirilmiş VII zirvə görüşündəki nitqindən götürülmüşdür.

Nəşrin buraxılışına məsul Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin çoxcildlik əsərlərinin oxuculara təqdim olunan bu cildində İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının VII zirvə görüşündə ulu öndərin çıxışları, dövlət və hökumət başçıları ilə danışıqları, Azərbaycana gələn bir sıra xarici dövlət və hökumət nümayəndələri, tanınmış ictimai-siyasi xadimlər, beynəlxalq təşkilatların rəhbərləri ilə yüksək səviyyəli görüşlərinə dair materiallar, KİV-ə verdiyi bəyanat və müsahibələr dərc edilmişdir.

Kitabda, həmçinin ulu öndərin Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və dramaturq Hüseyn Cavidin ev-muzeyinin açılış mərasimində, Bakı Metropoliteninin 35 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqləri, ölkəmizin sosial-iqtisadi inkişafı və ictimai-siyasi həyatından bəhs edən materiallar, Şəkiyə səfəri zamanı şəhər sakinləri ilə görüşlərdəki nitq və çıxışları, Dağlıq Qarabağ probleminə dair prinsipial mövqeyi öz əksini tapmışdır.

Kitabda əks olunan rəsmi sənədlər, çıxışlar, müsahibələr, fərmanlar, müraciətlər, bəyanatlar, məktublar, məruzələr 2002-ci ilin oktyabrından noyabrınadək olan dövrü əhatə edir.

"Azərnəşr" tərəfindən çap olunan çoxcildliyin hazırlanmasında Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc) materiallarından istifadə edilmişdir.